

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 128 (21.280)

*2 iyul 2015-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 1 iyul tarixli Sərəncamı ilə cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin mühafizəsində, beynəlxalq əhəmiyyətli kütləvi tədbirlər zamanı ictimai təhlükəsizliyin təmin edilməsində və xüsusi tapşırıqların yerinə yetirilməsində fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bir qrup əməkdaşı təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları da vardır.

**“Vətən uğrunda” medalı ilə**

Həsənov Tofiq Etibar oğlu – polis polkovnik-leytenantı

İbrahimov Abbas Nadir oğlu – polis polkovniki

**“İgidliyə görə” medalı ilə**

Məmmədəliyev Kamil Həsən oğlu – polis polkovnik-leytenantı

***2 iyul Azərbaycan Polisi Günüdür***

## Muxtar respublikada ictimai asayiş etibarlı qorunur

*Ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il 24 may tarixli Fərmanı ilə Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin tərkibində ilk polis orqanlarının təsis edildiyi gün – 2 iyul Azərbaycan Polisi Günü elan olunmuşdur.*

Azərbaycan polisi yarandığı gündən ötən 97 il ərzində şərəfli bir yol keçmiş, müxtəlif vaxtlarda ayrı-ayrı adlarla fəaliyyət göstərməsindən asılı olmayaraq, Vətənə, xalqa, qəbul etdiyi anda sədaqətlə, ləyaqətlə xidmət etmiş, zamanın bütün sınaqlarından mətinliklə çıxmış, dövlətçiliyin əsas sütunlarından birinə çevrilmişdir.

Azərbaycanda daxili işlər orqanlarının inkişafı ulu öndər Heydər Əliyevin xidmətlərinin nəticəsində mümkün olmuşdur. Ümummilli liderimiz 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra daxili işlər orqanlarına da dövlət qayğısı güclənmiş, Vətəninə və xalqına sədaqətli kadrların irəli çəkilməsinə, əməkdaşların vətənpərvərlik, milli dəyərlər əsasında təlim-tərbiyəsinə, peşəkarlığının yüksəldilməsinə xüsusi diqqət yetirilmişdir. Bu dövrdən etibarən şəxsi heyətin milli dövlətçilik ideologiyası əsasında formalaşdırılmasına başlanılmışdır.

Ölkəmiz müstəqillik qazandıqdan və 1993-cü ildə xalqın təkidli tələbi ilə ulu öndər Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra isə hüquq-mühafizə orqanlarının yeni inkişaf mərhələsi başlandı. Cəmiyyət həyatında sabitliyin qorunması, asayişin bərpası dövlətçiliyin təməl prinsiplərindən biri kimi diqqət mərkəzində saxlanıldı, hüquq-mühafizə orqanlarında, xüsusən daxili işlər orqanlarında müşahidə olunan neqativ hallar aradan qaldırıldı.

*“Polis Azərbaycan dövlətinin, xalqımızın keşiyində duran mübariz bir orqandır”*, – deyən ümummilli liderimizin həyata keçirdiyi kadr islahatları peşəkarlığın artırılmasına, xidmətin səmərəli təşkilinə zəmin yaratdı. Qanunların aliliyinin təmin olunması, dövlətçilik prinsiplərinin ön plana çəkilməsi ölkədə cinayətkarlıqla mübarizənin möhkəm təməlini qoydu. Dahi şəxsiyyətin 1994-cü il avqustun 9-da imzaladığı “Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında” Fərman mütəşəkkil cinayətkarlıqla mübarizənin təşkilati-hüquqi bazasının əsasını qoymuşdur. Qanunvericilik bazasının təkmilləşdirilməsi sonrakı dövrdə də davam etdiriləcək “Polis haqqında”, “Əməliyyat-axtarış fəaliyyəti haqqında” qanunlar, “Daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə” qəbul edilmişdir. Qanunların aliliyini rəhbər tutan hüquq-mühafizə orqanlarının qətiyyətlə həyata keçirdikləri əməliyyatlar nəticəsində kriminogen durum nəzarətə alınmışdır. Nəticədə, ağır cinayətlərin sayı kəskin surətdə azalmış və Azərbaycan ən sabit ölkələrdən birinə çevrilmişdir.

Bu gün fəxrlə demək olar ki, Azərbaycan polisi öz peşəkarlığı ilə seçilir. Həyata keçirilən davamlı islahatlar, cinayətkarlığa qarşı mübarizə üzrə qəbul olunmuş normativ-hüquqi aktlar polisin fəaliyyətini nizama salmış, əməkdaşların sosial rifah halının yaxşılaşdırılması istiqamətində onlarla fərman, sərəncam imzalanaraq həyata keçirilmişdir. Bütün bunlar cinayətkarlığa qarşı mübarizədə daxili işlər orqanlarının əməkdaşlarına əlavə stimul vermişdir.



Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin inzibati binası

Daxili işlər orqanlarına hərtərəfli diqqət və qayğı göstərən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkəmizdə sabitliyin və asayişin qorunması istiqamətində ardıcıl tədbirlər görülür. 2004-cü ildə qəbul olunmuş “Azərbaycan Respublikasında polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair Dövlət Proqramı” müasir dövrün tələbinə uyğun islahatların aparılmasında, maddi-texniki bazanın və şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsində mühüm əhəmiyyət kəsb etmişdir. Dövlət proqramına uyğun olaraq, vətəndaşların məruz qala biləcəyi hüquqazidd əməllərə qarşı təxirəsalınmaz operativ tədbirlərin görülməsi, eləcə də ictimaiyyətlə əlaqələrin daha effektli təşkili məqsədilə “102” və “Təhlükəsiz şəhər” xidmətləri yaradılmışdır.

Muxtar respublikamızda da polis orqanları diqqət və qayğı ilə əhatə olunmuşdur. Son 20 il ərzində Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarının maddi-texniki bazası ən müasir səviyyəyə çatdırılmış, fəaliyyətin günün tələbləri səviyyəsində təşkili təmin edilmişdir. Ötən müddət ərzində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin inzibati binası da daxil olmaqla, bütün ərazi polis orqanlarının inzibati binaları yenidən qurulmuş, xidməti avtomobillər yeniləri ilə əvəz edilmiş, müasir informasiya-kommunikasiya texnologiyaları ilə təminat polisin işini daha da asanlaşdırmışdır.

Daxili işlər orqanlarına göstərilən diqqət və qayğı muxtar respublikada təmin edilməsi sahəsində qanunvericiliklə müəyyən edilmiş vəzifələr layiqincə yerinə yetirilir. Naxçıvan polisi cinayətlərin, inzibati xətaların və digər hüquqpozmaların baş vermədən qarşısının alınması istiqamətində uğurla fəaliyyət göstərir. Ən müasir texniki avadanlıqlardan, informasiya texnologiyalarının son nailiyyətlərindən istifadə cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin və təhlükəsizliyin təmin olunmasında operativliyi artırmışdır. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin rəsmi internet səhifəsinin, elektron poçtunun və səyyari xidmətinin fəaliyyət göstərməsi isə işin səmərəli təşkilinə, eləcə də vətəndaşların rahatlığının təmin olunmasına və müraciətlərinin vaxtlı-vaxtında həllinə şərait yaratmışdır.

Öz işini qanunçuluq, humanistlik, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi prinsipləri əsasında quran polis orqanları hüquqazidd əməllərin qarşısının alınmasında və



Naxçıvan Şəhər Polis İdarəsinin inzibati binası

cinayətlərin qarşısının alınması və açılması, ictimai asayişin qorunması sahəsində inkişafı təmin etmiş, insan hüquq və azadlıqlarının qorunması işi daha da yaxşılaşdırılmış, kriminogen vəziyyət ciddi nəzarətdə saxlanılmışdır. Heydər Əliyev ideyalarına və dövlətçilik prinsiplərinə sadiq olan Naxçıvan polisi bu gün ağır, məsuliyyətli, həm də şərəfli vəzifələrinin öhdəsindən bacarıqla gəlir, göstərilən etimadı nümunəvi xidmətləri ilə doğruldur.

Bu gün polis insan hüquqlarının əsas təminatçısına çevrilmiş, milli dəyərlərə hörmət və dövlətçilik ənənələrinə sədaqəti fəaliyyətinin əsas istiqaməti kimi qəbul etmişdir. Hazırda muxtar respublikada cinayətkarlıqla mübarizə, ictimai təhlükəsizliyin ictimai təhlükəsizliyin təmin edilməsində, eləcə də cinayətkarlığa qarşı mübarizədə yeni iş metodları tətbiq etməklə yanaşı, şəxsi heyətin peşə hazırlığı, mənəvi dəyərlərə ciddi riayət ruhunda tərbiyə olunması işini də diqqət mərkəzində saxlayır. Bununla yanaşı, muxtar respublikanın şəhər, rayon və kəndlərində, eləcə də ümumtəhsil məktəblərində mütəmadi olaraq görüşlər keçirilir, əhali arasında maarifləndirici söhbətlər aparılır.

*Naxçıvan polisi qanunla müəyyən edilmiş vəzifələri, qarşıya qoyulan tapşırıqları bundan sonra da əzmlə yerinə yetirəcək, xalqa, Vətənə sədaqətlə xidmət edəcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin mətbuat xidməti***

## Dövlət Yol Polisi İdarəsinin Ordubad Rayon Müayinə Mərkəzi üçün bina inşa edilir



*Muxtar respublikada nəqliyyat idarəetmə sisteminin təkmilləşdirilməsi, avtomobillərin texniki vəziyyəti və onların təhlükəsiz hərəkətinin təmin edilməsi diqqət mərkəzində saxlanılır.*

Bu tədbirlərin davamı olaraq Ordubad şəhərində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Ordubad Rayon Müayinə Mərkəzi inşa edilir. İnşaat işləri Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsi tərəfindən həyata keçirilir. Obyektdə qəlib-beton, hörgü, suvaq işləri başa çatdırılıb, binanın dam örtüyü vurulub, kommunikasiya xətlərinin çəkilişi yekunlaşdırılıb. İnşaatçılar binanın fasadının boyanması üçün hazırlıq işləri görürlər. Bundan başqa, binanın ətrafında abadlıq işləri aparılır. Əraziyə asfalt örtük salınacaq, burada avtomobil dayanacağı yaradılacaqdır.

İki mərtəbədən ibarət olan müayinə mərkəzinin binasının birinci mərtəbəsində avtomobillərin texniki baxışa hazırlığı, texniki baxışın keçirilməsi, qeydiyyat aparılması üçün zal və xidməti otaqlar, ikinci mərtəbədə isə iş otaqları və bufet yerləşəcək. Müayinə mərkəzi bu sahədə tətbiq olunan ən qabaqcıl texnologiyalarla təchiz ediləcək. Burada kompüter dəsti, monitorlar qoyulacaq, xarici ölkələrin istehsalı olan texniki müayinə avadanlıqları quraşdırılacaq. Yeni avadanlıqlar minik və yük avtomobillərinin əyləc sistemini, mühərrikdən atmosferə atılan işlənmiş qazların tərkibində olan zərərli tullantıların normativ standartlara uyğunluğunun, sükanın idarəetmə qollarının və almacıqların yoxlanılmasına, işıqların tənzimlənməsinə və şinlərin protektor naxışlarının ölçülməsinə imkan verəcək.

Məlumat üçün qeyd edək ki, baxışdan keçən avtomobillər hər mərhələni qət etdikcə onun dediyimiz texniki vəziyyəti barədə məlumatlar kompüterdə əks olunur və Dövlət Yol Polisi İdarəsinin mərkəzi qeydiyyat sisteminə ötürülür. Texniki baxış başa çatdıqdan sonra müayinənin yekun nəticələri nəqliyyat vasitəsinin sahibinə təqdim edilir.

*Əhali qrupu üzrə təbii qaz istehlakçılarının mavi yanacaqdan müasir standartlara cavab verən texnologiyalar vasitəsilə istifadəsi məqsədilə Naxçıvan şəhərində ön ödənişli smartkarttipli qaz sayğaclarının quraşdırılmasına başlanılıb.*

## Naxçıvanda ön ödənişli smartkarttipli qaz sayğaclarının quraşdırılmasına başlanılıb

Hələlik, sifariş əsasında Türkiyə istehsalı olan 10 min ədəd sayğac gətirilib. Sayğacların kənar müdaxilələrdən mühafizəsi üçün qutular alınıb. Sayğacların hər biri Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydiyyatdan keçib.

Sayğacların quraşdırılmasına cəlb ediləcək işçilər üçün “Naxçıvanqaz” İstehsalat Birliyində hazırlıq kursları təşkil olunub.

“Naxçıvanqaz” İstehsalat Birliyindən aldığımız məlumata görə, ilkin olaraq Naxçıvan şəhərində sınaq üçün 7 ədəd sayğac quraşdırılıb.

Bu sayğacların üstün cəhətləri ilə bağlı sualımızı “Naxçıvanqaz” İstehsalat Birliyinin Qaza nəzarət və satış şöbəsinin müdiri Elçin Nəsirov cavablandırdı. İlk olaraq onu bildirdi ki, sayğac quraşdırılarkən onun üzərinə 30 kub qaz avans kimi yüklənmiş olacaq. Abunəçilər təlimat kitabçası və üzərində istifadəetmə qaydaları göstərilən kartla təmin ediləcəklər. Şənbə, bazar və bayram günlərində mütəmadi, digər günlərdə isə axşam saat 17[00]-dən səhər 10[00]-dək sayğacların bağlanmasına məhdudiyyət qoyulub. Yeni texnoloji avadanlığın üstün cəhətlərindən biri ondadır ki, hər hansı fövqəladə vəziyyətdə sayğac avtomatik olaraq dayanır. Əgər abunəçinin sayğacında problem yaranarsa, birlik tərəfindən əl terminalı ilə məlumat sayğacdan götürülür, problemin mənbəyi aşkarlanır.

“Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən müvafiq sayda ödəmə məntəqələri yaradılıb. Həmin məntəqələr müasir avadanlıqlarla təmin edilib. Hal-hazırda “Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyətində bir məntəqə fəaliyyət göstərir. Sayğac quraşdırılan abonentlərin sayı artdıqca ödəmə məntəqələrinin də sayı artacaqdır.

**Xəbərlər şöbəsi**

# Naxçıvan şəhərində yeni çimərlik mövsümü açılmışdır

***Naxçıvanda şəhər infrastrukturunun inkişafı ilə yanaşı, insanların sağlamlığının qorunması və istirahətinin səmərəli təşkili də diqqət mərkəzində saxlanılır. Ötən ilin iyul ayında Uzunoba Su Anbarında yeni çimərliyin istifadəyə verilməsi bu sahədə həyata keçirilən tədbirlərin davamı olmaqla yanaşı, həm də insan amilinə verilən qiymətin daha bir ifadəsidir. Ötən il olduğu kimi, bu il də şəhər sakinləri Uzunoba İstirahət Kompleksində fəaliyyət göstərən Naxçıvan şəhər çimərliyində öz vaxtlarını səmərəli keçirəcəklər.***



İyulun 1-də Naxçıvan şəhər çimərliyində çimərlik mövsümünün başlanması münasibətilə tədbir keçirilmişdir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov və Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar naziri Şamı Abdullayev tədbirdə iştirak etmişlər.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov çıxış edərək demişdir ki, bu gün Naxçıvan şəhərində insanların sağlamlıqlarının qorunması və istirahətinin səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Ötən il istifadəyə verilən Naxçıvan şəhər çimərliyi də bu sahədə həyata keçirilən tədbirlərin davamı kimi mühüm əhəmiyyət daşıyır. Yeni mövsümə başlayan çimərlikdə yüksək səviyyəli istirahət və xidmət şəraiti yaradılmışdır. Burada restoran və digər xidmət sahələri fəaliyyət göstərir. Bu da isti yay günlərində sakinlərin və şəhərə gələn qonaqların istirahətinin səmərəli təşkilinə imkan verəcəkdir.

Sonra Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin rəisi, mayor Azadil Hüseynov yeni mövsümdə Naxçıvan şəhər çimərliyində həyata keçirilən tədbirlər barədə məlumat vermişdir.

Qeyd olunmuşdur ki, çimərliyin ümumi sahəsi 14 min 850 kvadratmetrdir. Böyüklər və uşaqlar üçün nəzərdə tutulan çimərlik iki hissədən ibarətdir. Uşaqlar üçün çimərliyin uzunluğu 30 metr, eni 15 metr, dərinliyi isə 70-120 santimetrdir. Böyüklər üçün çimərliyin uzunluğu isə 255 metr, eni 20 metr, dərinliyi isə 2-4 metrdir. Suyun üzərində çimərlik sərhədinin qurtardığını bildirən qadağanedici nişanlar qoyulmuşdur.

Çimərlik ərazisində insanların istirahət etməsi üçün lazımi şərait yaradılmışdır. Burada 51 günlük, 49 çarpayı, 20 stul qoyulmuş, paltardəyişmə yerləri, duş kabinələri, futbol və voleybol meydançaları, eləcə də avtomobil dayanacağı yaradılmış, ictimai iaşə xidməti təşkil olunmuşdur. Çimərlik istirahət zonasında su və digər idman növləri üzrə yarışların, eləcə də gənclərin iştirakı ilə müxtəlif tədbirlərin keçirilməsi üçün bütün şərait vardır. Burada təhlükəsizlik tədbirləri də diqqətdə saxlanılmış, müşahidə qülləsi yaradılmış, ərazidə xəbərdaredici və məlumatlandırıcı lövhələr vurulmuşdur. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Sularda Xilasetmə Xidmətinin xilasedici qrupu ərazidə xidmət aparır. Çimərlikdə xilasedici qayıqlardan istifadə olunur.

Çimərlik səhər saat 6-dan axşam saat 8-dək işləyəcəkdir. Naxçıvan şəhərindən çimərliyə və əks istiqamətə avtobus xidməti də göstəriləcəkdir.

**“Şərq qapısı”**

*Elektron cəmiyyət*

## Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu 20 adda elektron xidmət göstərəcək

***Azərbaycanın müasir inkişaf modeli ölkəmizdə yeni iqtisadi sistemə sürətli keçidi şərtləndirərək sosial dövlət quruculuğunun uğurla reallaşdırılmasını təmin etmişdir. Bu əsasda bütün istiqamətlərdə islahatların vahid konsepsiya çərçivəsində qısa zamanda gerçəkləşdirilməsi Azərbaycanı sürətli inkişafa malik modern dövlətə çevirmişdir. Ölkəmizdə sosial müdafiə sisteminin beynəlxalq standartlar əsasında yenidən qurulması və sığorta-pensiya sistemində pensiyaların artırılması mexanizminin bazar iqtisadiyyatının tələblərinə uyğun tətbiq edilməsi mövcud maliyyə imkanlarının bütün pensiyaçılar arasında ədalətli və şəffaf bölgüsünə imkan vermişdir.***

Ölkə başçısı cənab İlham Əliyevin 2014-cü il 2 aprel tarixli Sərəncamı ilə təsdiq edilən “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya”da informasiya və kommunikasiya texnologiyaları respublikanın davamlı və dayanıqlı inkişafının təmin edilməsi, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir. Ölkədə “Elektron hökumət”in formalaşdırılmasına ciddi diqqət yetirilir. Dövlət-vətəndaş münasibətlərinin informasiya texnologiyaları vasitələrindən istifadə etməklə sadələşdirilməsi, şəffaflaşdırılması bürokratik əngəllərin qarşısının alınmasına xidmət edir.

“Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun internet saytının (***www.dsmf.nakhchivan.az***) yaradılması nəticəsində məcburi dövlət sosial sığortahaqqı ödəyicilərinin məcburi dövlət sosial sığorta haqlarını plastik bankomat kartları vasitəsi ilə onlayn ödəməsinə, vətəndaşların fonda elektron müraciət etmələrinə və digər elektron xidmətlərin fəaliyyət göstərməsinə geniş imkanlar açmışdır.

Naxçıvan Muxtar Respublikasının “Elektron hökumət” portalına (***www.e-hokumet.nmr.az)*** Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 20 adda elektron xidməti inteqrə edilmişdir. Fond tərəfindən göstərilən elektron xidmətlər pensiyaçılar, sığortaedənlər və sığortaolunanlar üzrə olmaqla, üç istiqamətdə aparılır.

Hazırda həmin elektron xidmətlərdən sığortaolunanın onlayn uçota alınması, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı, hamiləliyə və doğuma görə müavinətlə bağlı, uşağın anadan olmasına görə müavinətlə bağlı, uşağın üç yaşı tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi, sığortaolunanlara məlumatların verilməsi, pensiya kalkulyatoru, pensiya təyinatının və pensiya növünün dəyişdirilməsi üçün müraciətin və sənədlərin qəbulu, pensiyaçıya məlumatların verilməsi, məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi xidmətləri fəaliyyət göstərir.

Elektron xidmətlərdən istifadə etmək üçün ***www.dsmf.nakhchivan.az*** internet ünvanında yerləşdirilmiş elektron xidmətlər bölməsinə daxil olmaq lazımdır. Elektron xidmətlərdən istifadə ödənişsizdir. Digər elektron xidmətlərin də yaxın vaxtlarda fəaliyyət göstərməsi üçün fond tərəfindən müvafiq işlər aparılır.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu və onun yerli orqanlarında müasir standartlara cavab verən avtomatlaşdırılmış iş yerləri təşkil olunmuş, lokal şəbəkələr mərkəzi informasiya sisteminə birləşdirilərək fondun ümumi korporativ şəbəkəsi formalaşdırılmış, əhaliyə və sığortaedənlərə göstərilən xidmətlər müasirləşdirilərək bu sahədə elektron xidmətlərin tətbiqinə şərait yaradılmış və informasiya texnologiyalarının imkanlarından istifadə etməklə, demək olar ki, fondun bütün sahələri avtomatlaşdırılmışdır. Bunun da nəticəsində vətəndaşlara, əmək pensiyaçılarına, sığortaedənlərə və sığortaolunanlara göstərilən xidmətlərin keyfiyyəti yaxşılaşdırılmışdır.

Müasir standartlara cavab verən server avadanlıqları ilə təchiz edilməklə fondun aparatının İnformasiya texnologiyaları sektorunda yerləşdirilmiş fondun aparatının, arxivin və Naxçıvan Şəhər Şöbəsinin serverləri fiber-optik kabel vasitəsilə Babək, Culfa, Ordubad, Şahbuz, Kəngərli, Şərur və Sədərək rayonlarındakı serverlərə qoşulmuşdur. Həmin serverlərdə fondun işçiləri tərəfindən gündəlik işlənilən müvafiq məlumatlar, hesabatlar və müasir proqram təminatları yerləşir ki, fiber-optik kabel vasitəsilə istənilən serverlə məlumat mübadiləsi aparmaq mümkündür.

2014-cü ilin noyabr ayından etibarən fond tərəfindən avtomatlaşdırılmış qaydada əmək pensiyalarının təyinatına başlanılmışdır.

Muxtar respublika ərazisində yaşayan və pensiya yaşına çatmış hər bir vətəndaş heç bir sənəd toplamadan, vaxt itirmədən fondun aparatının Pensiya şöbəsində yaradılmış avtomatlaşdırılmış pensiya təyinatı xidmətinə, ***(+99436) 550-59-79*** nömrəsinə zəng etməklə real vaxt rejimində dərhal əmək pensiyası təyinatı hüququnu reallaşdırmaq imkanına malikdir. Avtomatlaşdırılmış qaydada əmək pensiyası təyinatı aparılan hər bir vətəndaşa bir neçə dəqiqə ərzində ona təyin olunan pensiyanın məbləği və öz plastik bankomat kartını ala biləcəyi müvəkkil bankın filialının ünvanı bildirilir.

Avtomatlaşdırılmış pensiya təyinatının aparılması üçün ***(+99436) 550-59-79*** nömrəsinə zəng edərək müraciət edən şəxsin yalnız şəxsiyyət vəsiqəsinin seriya nömrəsini bildirməsi kifayətdir. Bu məlumat dərhal Dövlət Sosial Müdafiə Fondunda yaradılmış xüsusi proqram təminatına daxil edilir və həmin göstəricilərin sistemdə düzgünlüyü təsdiqləndiyi halda, fondun fərdi məlumatlar bazasına inteqrə edilərək vətəndaşın 1 yanvar 2006-cı il tarixədək olan iş stajı və 1 yanvar 2006-cı il tarixdən ödədiyi məcburi dövlət sosial sığorta haqlarından avtomatlaşdırılmış qaydada əmək pensiyasının təyinatı aparılır. Elə həmin vaxt vətəndaşa ona təyin olunmuş əmək pensiyasının məbləği bildirilir. Eyni zamanda vətəndaşın ünvanına bununla bağlı xüsusi rəsmi bildiriş də göndərilir.

Hal-hazırda ilkin mərhələdə avtomatlaşdırılmış pensiya təyinatı yaşa görə əmək pensiya hüququ yaranmış əmək pensiyaçılarına tətbiq olunur. Gələcəkdə avtomatlaşdırılmış pensiya təyinatı əlilliyə və ailə başçısını itirməyə görə əmək pensiyası hüququ yaranan pensiyaçılara da şamil ediləcəkdir.

Avtomatlaşdırılmış qaydada yaşa görə əmək pensiyasının təyinatı üçün vətəndaşın pensiya yaşı, sığorta stajı və məcburi dövlət sosial sığorta haqlarının məbləği tələb olunan əsas göstəricilərdir.

Avtomatlaşdırılmış pensiya təyinatı sistemi Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanlarında fərdi uçot sektorları tərəfindən işlənmiş fərdi uçot məlumatları əsasında internet üzərindən aparılır.

Pensiyaların ödənişində kart sisteminin tətbiqi sığorta-pensiya sistemində həyata keçirilən ən uğurlu islahat tədbirlərindən biridir. Naxçıvan Muxtar Respublikası üzrə Dövlət Sosial Müdafiə Fondunun yerli orqanlarında uçotda duran bütün növ əmək pensiyaçılarının pensiyaları plastik bankomat kartları vasitəsilə ödənilir.

Fondun yerli orqanları tərəfindən sığortaolunanlara məcburi dövlət sosial sığortası üzrə müavinətlərin ödənilməsi də plastik bankomat kartları vasitəsilə həyata keçirilir. Belə ki, müavinətlərin ödənilməsi üçün sığortaedənlər tərəfindən təqdim edilmiş sifarişlərə əlavə olunmuş haqq-hesab cədvəllərində qeyd edilmiş bank rekvizitlərinə uyğun olaraq, müavinətlər sığortaolunanların plastik bankomat kart hesablarına köçürülür.

Fondun yerli şöbələrində işlənilən məlumatlara fondun aparatı tərəfindən nəzarət olunur. Fondun aparatı və yerli şöbələrinin serverlərində olan bütün məlumatlar arxivləşdirilərək saxlanılır.

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun* ***dsmf@nakhchivan.az*** *elektron poçt ünvanına müraciət edən şəxslərin müraciətləri də araşdırılaraq mövcud qanunvericiliyin tələblərinə müvafiq qaydada operativ cavablandırılır.*

**Rza QARAYEV**
**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi**

***Dünən Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin təşkilatçılığı ilə keçirilən “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı tədbirdə hədiyyə qazanmış Babək, Culfa və Ordubad rayonlarının sakinlərinə hədiyyələr təqdim olunub.***

## Babək, Culfa və Ordubad rayonlarında nağdsız əməliyyatlara üstünlük verən vətəndaşlar mükafatlandırılıblar



Bu münasibətlə Culfa rayonunda keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Vergilər nazirinin müavini Nurlan Əliyevin, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədr müavini Elvin Axundovun, Vergilər Nazirliyinin şöbə rəisi Rəşad Əliyevin çıxışları olub. Çıxışlarda qeyd edilib ki, nağdsız ödəniş sistemi iqtisadi və sosial əhəmiyyətə malikdir. Müasir dövrün tələblərindən irəli gələrək maliyyə bazarının daha da inkişafı, iqtisadiyyata investisiya qoyuluşu imkanlarının genişləndirilməsi, vahid elektron ödəniş məkanının formalaşdırılması və ölkədə nağd pul dövriyyəsinin məhdudlaşdırılması ilə əlaqədar müasir elektron ödəniş xidmətlərinin daha da təkmilləşdirilməsi, nağdsız ödənişlərin stimullaşdırılması tədbirlərinin ardıcıl olaraq davam etdirilməsi çox mühüm əhəmiyyət kəsb edir. Bu tədbirlər təsərrüfat subyektlərində maliyyə intizamının gücləndirilməsi, korporativ sektorda şəffaflığın artırılması, o cümlədən vergidən yayınma hallarının aradan qaldırılmasına xidmət edir. Nağdsız ödənişlərin genişləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin əsas məqsədi ölkədə iqtisadiyyatın inkişafının keyfiyyətcə yeni mərhələyə keçməsindən, iqtisadi sistemin subyektləri arasında şəffaflığa nail olunmasından, vergilərdən yayınma hallarının minimuma endirilməsindən ibarətdir.

Bildirilib ki, muxtar respublikada nağdsız ödənişlərin stimullaşdırılması üzrə görülən işlərdən biri də mal və xidmətlərin haqqının plastik kartlar vasitəsilə ödənilməsinə imkan yaradan vergi ödəyiciləri, eləcə də alıcılar üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsidir. Nağdsız ödənişlərin stimullaşdırılması şəffaflığın artırılması və bank sektorunun inkişafına kömək etməklə bərabər, əhalinin nağdsız əməliyyatlara üstünlük verməsinə imkan yaradır. Qarşıda duran əsas vəzifə yaradılmış potensialdan və infrastruktur imkanlarından daha səmərəli istifadə olunması, nağdsız ödənişlərin çeşidinin, səmərəliliyinin və tətbiqi dairəsinin genişləndirilməsinə nail olunması, eyni zamanda cəmiyyətdə yüksək ödəniş mədəniyyətinin formalaşdırılması, əhalidə elektron ödəniş xidmətləri və nağdsız ödəniş alətlərindən istifadəyə marağın artırılmasıdır.

Məlumat üçün bildirək ki, iyulun 1-də keçirilən tədbirlər çərçivəsində Babək rayonundan 29, Culfa rayonundan 31, Ordubad rayonundan 25 nəfərə hədiyyələr təqdim edilib. Ümumilikdə isə “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı həvəsləndirici tədbirin 3-cü tirajında hədiyyə qazanmış şəxslərin sayı muxtar respublikamızın bütün şəhər və rayonlarını əhatə etməklə 200 nəfər təşkil edib.

**Səbuhi HÜSEYNOV**

## "Məmməd Səid Ordubadi: Həyatım və mühitim" miniatür kitabının təqdimat mərasimi keçirilib

*İyulun 1-də Ordubad şəhərindəki Məmməd Səid Ordubadinin ev-muzeyində "Məmməd Səid Ordubadi: Həyatım və mühitim" miniatür kitabının təqdimat mərasimi keçirilib.*

Mərasimi Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair Asim Əliyev açaraq bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Məmməd Səid Ordubadinin 140 illik yubileyi haqqında" 2012-ci il 10 aprel tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 aprel 2012-ci il tarixli Sərəncamı ilə təsdiq olunan "Məmməd Səid Ordubadinin 140 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"na uyğun olaraq, yazıçının əsərlərinin bir qismi yenidən çap olunub. Sərəncamdan sonra "Məmməd Səid Ordubadi: Həyatım və mühitim", "Məmməd Səid Ordubadi: taleyi və sənəti", Yavuz Axundlunun "Məmməd Səid Ordubadi" kitabları nəşr edilib, yazıçının 140 illik yubileyi qeyd olunub. Bu gün təqdimatına yığışdığımız "Məmməd Səid Ordubadi: Həyatım və mühitim" miniatür kitabı da ədibin 140 illik yubileyinə həsr edilib.

Qeyd olunub ki, Azərbaycanda, eləcə də dünyada yeganə Miniatür Kitab Muzeyinin yaradıcısı Zərifə xanım Salahova bu miniatür kitabın ərsəyə gəlməsində böyük zəhmət çəkib. Zərifə xanım Salahova ötən il sentyabr ayının 29-da Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə həsr olunmuş miniatür kitabın təqdimat mərasimində iştirak edib. Eyni zamanda o, Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Miniatür kitab şöbəsinin yaradılmasında da böyük zəhmət çəkib. Ona görə də biz Zərifə xanım Salahovanın əməyini yüksək qiymətləndirir, ona muxtar respublikanın, eləcə də Ordubad rayonunun bütün ziyalıları adından dərin minnətdarlığımızı bildiririk.





Miniatür Kitab Muzeyinin ilk dəfə Azərbaycanda yaradıldığını deyən Asim Əliyev bildirib ki, bu muzey ümummilli lider Heydər Əliyevin qayğısı ilə 2002-ci il aprelin 23-də Bakıda açılıb. Bu gün həmin muzeydə dünyanın 60-dan çox ölkəsində çap olunan altı mindən çox miniatür kitab toplanıb ki, bu kitablar içərisində Azərbaycan nəşriyyatlarının çap etdirdiyi miniatür kitablar da yer alıb. 278 səhifədən ibarət olan "Məmməd Səid Ordubadi: Həyatım və mühitim" miniatür kitabı da belə nəfis tərtibatla çap olunan kitablardandır.

Vurğulanıb ki, Məmməd Səid Ordubadinin bu miniatür kitabında onun yaşadığı dövrlə, mühitlə bağlı fikirləri geniş yer alıb. Müəllif kitabın "Familiyamız", "Şeir və ədəbiyyatın qiyməti", "İpək ticarəti", "Mən ipək zavodunda", "Qəflət", "Culfada", "İyul günləri", "Naxçıvan həbsxanasında" və sair fəsillərində həyatının uşaqlıq illərindən başlayaraq 1917-ci ilə qədər olan hadisələri qələmə alıb. Onun həyatının ağır, çətin günləri, XX əsrin əvvəllərində inqilabi fəaliyyətə qoşulması, qəzetdə çalışması, sürgünlərdə olması kitabda real lövhələrlə təsvir olunur. Biz bu miniatür kitabın çap olunmasını Zərifə xanım Salahovanın Naxçıvan ədəbi mühitinin yetirməsi olan qüdrətli sənətkara böyük məhəbbətin bariz ifadəsi kimi dəyərləndiririk.

Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, bu gün muxtar respublikada başqa sahələr kimi, mədəni həyatımız da intibah dövrünü yaşayır. Qədim diyarımızın tarixi keçmişi ilə bağlı kitabların nəşr olunması, beynəlxalq səviyyəli elmi konfransların, simpoziumların, görkəmli tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi, şair və yazıçılarımızın, elm, maarif fədailərinin ev-muzeylərinin yaradılması bir daha təsdiq edir ki, muxtar respublikada hər bir sahədə uğurlarımız saysız-hesabsızdır. Elə Ordubad rayonunda da Məmməd Səid Ordubadinin, akademik Yusif Məmmədəliyevin ev-muzeylərinin fəaliyyət göstərməsi, bu muzeylərin yenidən qurulması, Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması ilə bağlı sərəncamın verilməsi onu göstərir ki, qədim diyarımızda muzeylər şəbəkəsi genişləndirilir, tarixi şəxsiyyətlərimizin adı ilə bağlı muzeylərin sayı gündən-günə çoxalır. Bütün bu işlərə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə öz minnətdarlığımızı bildiririk.

Məmməd Səid Ordubadinin ev-muzeyinin direktoru Rüstəm Rəhimov, Ordubad rayon Aşağı Əndəmic kənd kitabxanasının böyük kitabxanaçısı, Məmməd Səid Ordubadinin qohumu Sevinc Məmmədova çıxış edərək kitabın nəşr edilməsində əməyi olan hər kəsə minnətdarlıqlarını bildiriblər.

Sonda tədbir iştirakçılarına "Məmməd Səid Ordubadi: Həyatım və mühitim" miniatür kitabı hədiyyə edilib, görkəmli yazıçının ev-muzeyinə baxış olub.

✍ **Səbuhi HƏSƏNOV**

## "Palitraya sığmayan rənglər" miniatür kitab-kataloqunun təqdimat mərasimi olub

*İyulun 1-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinovun "Palitraya sığmayan rənglər" miniatür kitab-kataloqunun təqdimat mərasimi olub.*

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva bildirib ki, bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında rəssamlara böyük diqqət və qayğı göstərilir. Rəssam Şamil Qaziyevin yaradıcılığı ilə bağlı hazırlanan kitab-kataloqun, Naxçıvanın füsunkar təbiətinin fotoetüdlərinin və muxtar respublikada yaşayıb-yaradan rəssamların əsərlərindən ibarət "Naxçıvan" kataloqunun, Azərbaycan Respublikasının Əməkdar rəssamı Mircəlil Seyidovun kitab-albomunun, Bəhruz Kəngərlinin əsərlərindən ibarət albom-kataloqun, "Naxçıvan – beşəriyyətin beşiyi" rəsm festivallarının kataloqlarının nəşr olunması muxtar respublika rəhbərinin mədəniyyətimizə incəsənətimizə göstərdiyi diqqət və qayğının nəticəsidir.






"Naxçıvan şəhərində fəaliyyət göstərən Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Miniatür kitab şöbəsinin yaradılması da məhz muxtar respublika rəhbərinin dəstəyi ilə gerçəkləşib", – deyən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri vurğulayıb ki, Miniatür Kitab Muzeyinin direktoru Zərifə Salahova hər zaman Naxçıvan rəssamlarına dərin hörmət bəsləyib, onların rəsm sərgilərində həvəslə iştirak edib. Bu gün Telman Abdinovun "Palitraya sığmayan rənglər" adlı miniatür kitab-kataloqunun işıq üzü görməsi də Zərifə Salahovanın, ümumilikdə, naxçıvanlı rəssamlara bəslədiyi hörmətin, rəğbətin təzahürüdür.

Ülviyyə Həmzəyeva kitab-kataloqun işıq üzü görməsi və iyulun 1-də 61 yaşının tamam olması münasibətilə Telman Abdinovu təbrik edib, ona yeni-yeni yaradıcılıq uğurları arzulayıb.

Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyev bildirib ki, xalq sənəti nümunələrini və xüsusən Naxçıvan təbiətini dərindən öyrənən istedadlı rəssam rəngkarlıq və tətbiqi sənət əsərlərini ustalıqla sərgilərdə nümayiş etdirir. Bütövlük, obrazın daxili xarakteri, materiallıq, siluet cazibəsi, aydın rəng tonları Telman Abdinovun portret, mənzərə, natürmort və mövzulu əsərlərinin əsasını təşkil etdiyini bildirən Hüseynqulu Əliyev kitab-kataloqun işıq üzü görməsi münasibətilə rəssamı təbrik edib.

Telman Abdinov çıxış edərək deyib ki, miniatür kitablara, əsasən, elmin, mədəniyyətin, incəsənətin yüksək inkişaf dövrünü yaşayan ölkələrdə maraq göstərilir. Bu gün ölkəmiz məhz sürətli inkişaf dövrünü yaşayır, intibahın Naxçıvan nümunəsi hər kəsin diqqətini cəlb edir.

Rəssam qeyd edib ki, oxucular kitab-kataloqda portret, natürmort və digər janrlarda yaradılan rəsm əsərləri ilə birlikdə "Tariximizi qoruyaq", "Sönməyən həyat", "Bir millət, iki dövlət", "Əlincə qala", "Haça dağ" və digər əsərlərlə tanış olacaqlar.

Sonda Telman Abdinovun və digər naxçıvanlı rəssamların rəsm əsərlərindən ibarət sərgiyə baxış oldu.

Qeyd edək ki, miniatür kitab-kataloq Miniatür Kitab Muzeyinin yaradıcısı və təsisçisi Zərifə Salahovanın təşəbbüsü ilə çap olunub.

✍ **Rauf ƏLİYEV**

## İyun ayının səhiyyə mənzərəsi: tibbi xidmətin əhatə dairəsi genişləndirilib

***Muxtar respublikanın səhiyyə sistemində tibbi xidmətin əhatə dairəsinin genişləndirilməsi, vətəndaşların keyfiyyətli tibbi xidmətlə əhatə olunması iyun ayında da diqqət mərkəzində saxlanılmış, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilmişdir.***

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən dializ olunan xroniki böyrək çatışmazlığı olan xəstələr üçün dializ materialları və dərman preparatları, Azərbaycan Respublikası Milli Onkologiya Mərkəzindən Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzinə kimyəvi terapiya aparmaq üçün dərman preparatları gətirilmişdir.

Ölkəmizin paytaxtında fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahi əməliyyatlarının təşkili davam etdirilmiş, Azərbaycan Milli Oftalmologiya Mərkəzinin oftalmoloqu tərəfindən Naxçıvan Muxtar Respublikası Göz Xəstəxanasında 21 nəfərdə müayinə aparılmış, 9 nəfərdə əməliyyat yerinə yetirilmişdir.

Səhiyyə Nazirliyinin çoxprofilli həkim briqadası tərəfindən Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində məhkumların hərtərəfli profilaktik tibbi müayinəsi aparılmışdır.

Obliqat qruplarının tibbi müayinələrinin gücləndirilməsi məqsədilə QİÇS-lə Mübarizə Mərkəzinin, Dəri-Zöhrəvi, Ağciyər Xəstəlikləri dispanserlərinin həkim, laborant və flüoroqraflardan ibarət təşkil edilmiş səyyar briqada iyun ayında Sədərək, Kəngərli, Şahbuz Rayon Mərkəzi xəstəxanalarında və Naxçıvan Dövlət Universitetində olmuş, tibb işçiləri, ictimai iaşə, gözəllik salonu işçilərinin yerində müayinələri aparılmış, 589 nəfərdən qan nümunəsi götürülmüş, hepatit B, C və QİÇS-ə görə müayinələr həyata keçirilmişdir. 304 nəfər isə flüoroqrafiya müayinəsindən keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən iyun ayı ərzində Ordubad rayonunun 6 kəndində təhsil müəssisələrində işləyən 74 nəfər qadında süd vəzinin profilaktik müayinəsi aparılmış, 7 nəfərdə patologiya aşkar edilərək onlar Onkoloji Mərkəzə dəvət olunmuşlar.

40-45 yaşlıların dispanserizasiyası davam edir. İyun ayında 5157 nəfər müayinədən keçirilmiş, 387 nəfərdə xəstəlik aşkar olunaraq dispanser qeydiyyatına götürülmüşdür.

İyun ayı ərzində sertifikasiya imtahanında iştirak edən 34 orta tibb işçisindən 30 nəfər, 32 həkimin isə hamısı uğurlu nəticə əldə edərək zəruri həddi keçmişdir.

Bioloji Təbabət Klinikasının həkimi, tibb elmləri doktoru, professor Fikriyyə İbrahimli və Almaniyanın Viadrina Universitetinin Bioloji təbabət fakültəsinin müəllimi, professor-doktor K.Marionun iştirakı ilə Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında 3 günlük "Modul A" proqramı tədris olunmuş, ölkəmizin paytaxtında fəaliyyət göstərən Endokrinoloji Mərkəzin direktoru Rauf Cabbarovun və mərkəzin digər həkimlərinin iştirakı ilə "Endokrinologiyanın müasir problemləri" mövzusunda elmi-praktik konfrans keçirilmişdir.

Rayon və kənd tibb müəssisələrinin fəaliyyətinə nəzarət məqsədilə iyun ayında Şahbuz Rayon Mərkəzi Xəstəxanasına, Nursu, Mahmudoba, Sələsüz kənd həkim ambulatoriyalarına, Culfa Rayon Mərkəzi Xəstəxanasına, Ərəzin, Bənəniyar, Kırna, Əbrəqunus, Xanəgah, Xoşkeşin həkim ambulatoriyalarına, Əlincə, Göydərə feldşer-mama məntəqələrinə gedilmiş, mövcud nöqsanların yerindəcə həll olunması üçün tapşırıqlar verilmişdir.

Ay ərzində 4 nəfər həkim Türkiyə Respublikasının İzmit Kocaeli Universitetinə və 4 nəfər həkim Ərzurum Atatürk Universitetinə müxtəlif müddətlərə təkmilləşdirmə kursu keçmələri üçün göndərilmişdir.

Ahıl və əlillərə göstərilən tibbi xidməti yaxşılaşdırmaq məqsədilə iyun ayı ərzində muxtar respublika üzrə 14 nəfər Bakının Şağan qəsəbəsindəki Əlillərin Müalicə Pansionatına, 28 nəfər Mərdəkan qəsəbəsindəki Müharibə və Əmək Veteranları Pansionatına, 11 nəfər müxtəlif xəstəxanalara müalicəyə göndərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

Əziz Şərif – 120

# Görkəmli ədəbiyyatşünas-alim Əziz Şərif haqqında bir neçə söz



***Görkəmli alim Əziz Şərifin anadan olmasının 120 illiyinin Naxçıvan Muxtar Respublikasında geniş qeyd edilməsi naxçıvanlıların sevincinə səbəb olub.***

Hələ orta məktəbin 8-ci sinfində oxuyanda ədəbiyyat müəllimimiz Əziz Şərifdən geniş söhbət açardı. Qeyd etmək yerinə düşər: həmin illərdə yazıçı M.Şoloxovun, S.Rəhimovun və Əziz Şərifin yaradıcılığı mənim çox marağıma səbəb olmuşdu. Tale elə gətirdi ki, sonralar rus yazıçısı, Nobel mükafatı laureatı Mixail Şoloxovla görüşmək mənə nəsib oldu. Onun yaşadığı Vyoşinsk stanitsasında yaradıcılıq ezamiyyətində oldum. Yazıçı Süleyman Rəhimovla və Əziz Şəriflə dostluq münasibətlərim yarandı.

Böyük yazıçımız Mirzə Cəlillə bağlı axtarışlarım məni Əziz Şəriflə dostlaşdırdı. Məsələ belə olmuşdu. Bir dəfə Bakıda olarkən (1976-cı ilin mayı) həmişəbahar buketi alıb Fəxri xiyabana – Mirzə Cəlilin və Həmidə xanımın, oğlanları Midhətin məzarlarını ziyarət etməyə getmişdim. Onlar üçü də yanyana dəfn ediliblər. Çox mütəəssir olmuşdum. Və həmin gün onların yaşadıqları evi axtarıb tapmışdım. O vaxtlar muzey yaradılmamışdı. Oradan birbaşa Nizami adına Ədəbiyyat Muzeyinə getmişdim. Mənə demişdilər ki, yazıçı ilə bağlı xatirə əşyaları fondda saxlanılır. Birtəhər, xahiş-minnətlə oradakı xatirə əşyalarının siyahısı ilə tanış olmuş və əşyaların adlarını dəftərçəmə köçürmüşdüm (o siyahı indi də qalır). Naxçıvana qayıdandan sonra axtarışlarımı davam etdirmişdim və belə axtarışların birində Əziz Şərifin Mirzə Cəlilin qızı Münəvvər xanıma yazdığı məktubu tapmışdım. Məktub 24 fevral 1957-ci ildə rusca yazılıb:

*“Əzizim Münəvvər!*

*Bir nüsxə avtoreferatımı sənə yadigar göndərirəm. Martın 21-də Azərbaycan Dövlət Universitetində mən doktorluq dissertasiyamı müdafiə edəcəyəm. Buna görə də 12 martda Bakıya yola düşürəm. Ümid edirəm ki, müdafiə uğurlu keçəcək. Kitabım çapdan çıxan kimi sənə xatirə olaraq göndərəcəyəm. Həmin əsərdə mən bir neçə dəfə səni xatırlamışam.*

*Əziz bacım, sənə sağlıq və işlərində uğurlar arzulayıram. Əgər şəhərə gəlsən, anama da baş çək. O, səni çox sevir. Ürəkdən gələn salamımı qəbul et.*

***Sənin Əzizin”***

Bu məktubla birgə yazıçı Mirzə Cəlillə bağlı yazım “Ədəbiyyat və İncəsənət” qəzetində (1983-cü il, avqust) dərc olunmuşdu. Unudulmaz tarixçimiz Əli müəllimin tövsiyəsi ilə Əziz Şərifə bu məktubla bağlı çap olunan yazımı da göndərmişdim. Böyük alim həmin ilin 6 sentyabrında mənə çox səmimi cavab yazmışdı.

Əziz Şəriflə dostluq əlaqələrim Naxçıvanda, Bakıda, Tiflisdə mənə yeni tanışlar, yaxın dostlar da qazandırmışdı. Sanki bir maraqlı mənəvi xəzinə açılırdı hər dəfə o insanlarla görüşəndə. Əziz Şərif “Molla Nəsrəddin” jurnalı haqqında monoqrafiyasını yazmaq üçün gərgin axtarışlar aparıb. Bu axtarışlarla bağlı onun dayısı, görkəmli pedaqoq Əbdüləzim Rüstəmova yazdığı məktub çox vacib mətləblərdən xəbər verir. Bu gün də həmin məktubda yazılanlar olduqca aktualdır. Onun rus dilində yazdığı (“Rojdeniye “Molla Nasreddina”) monoqrafiyası böyük yazıçımız Mirzə Cəlilə ithaf edilmişdi və 1866-1906-cı illəri əhatə edirdi. Kitab 1968-ci ildə “Gənclik” nəşriyyatında nəşr edilmişdi. 400 səhifədən ibarət olan çox qiymətli monoqrafiyanı Əziz müəllim 1951-1956-cı illərdə yazmışdı. Həmin kitab çapdan çıxanda Əziz Şərif tanınmış alim və tərcüməçi idi.

Qeyd edək ki, “Molla Nəsrəddin” necə yarandı” kitabı Azərbaycan dilində 1986-cı ildə “Azərnəşr”də çap olunub. Amma onun rus dilində olan nüsxəsi səciyyəvi cəhətlərinə görə monoqrafiyadır. Hər iki dildə olan bu kitab Azərbaycan ədəbiyyatşünaslığında əvəzsiz mənbədir və gələcəkdə də belə olacaqdır. Çünki hər yüzillikdə böyük ustad Mirzə Cəlillə bağlı çox öyrənmək istəyəndə hökmən bu monoqrafiyaları oxuyacaqlar.

Bizim məktublarımızda bu monoqrafiya ilə də bağlı maraqlı mülahizələr və axtarışlar vardır. Əziz Şərifin maraqlandığı bir “Ədəbiyyatşünaslıq dəftəri” haqda məlumatım vardır. Sonralar akademik İsa Həbibbəyli yazdığı “Cəlil Məmmədquluzadə: mühiti və müasirləri” adlı monoqrafiyasında həmin dəftər haqda geniş məlumat verib.

Əziz Şərifin həmin dəftərlə bağlı yazdıqları da ədəbiyyat və mədəniyyət tariximiz üçün faydalıdır:

*“Hörmətli Musa müəllim!*

*Məktubunuzu aldım. Vətəndən xəbər verdiyiniz üçün çox minnətdaram. İmkanım olsaydı, Naxçıvana gələr, qohum-qardaş, dost-aşına ilə görüşərdim.*

*Mənsura yazdığım məktub da, məktubda adını çəkdiyin dəftər də yaxşı yadımdadır. Təəssüf ki, o maraqlı dəftərdən bir xəbər çıxmadı. Onu tapa bilsəydiniz, çox yaxşı olardı.*

*Mirzə Əbdüləzim haqqında yazınız məni maraqlandırır. Çapdan çıxanda mütləq oxuyaram. Mirzə Əbdüləzimin müəllimliyi barədə İrəvan arxivində material vardır. Vaxtilə mən bu materiali görmüşdüm, ancaq surətini almamışdım. Maraqlansanız, İrəvan Dövlət Arxivinə müraciət edin. Mən bu arxiv haqqında “Rojdeniye “Molla Nasreddina” adlı kitabımın 92-97-ci səhifələrində məlumat vermişəm.*

*Hələlik, sağ olun. Sizə müvəffəqiyyətlər arzu edirəm – !*

*Hörmətlə: Əziz Şərif*
*8/VI-1985, Moskva”*

Məktubda adıçəkilən Mənsur Əbülqasım Sultanovun oğludur. Burada söhbət Mirzə Cəlillə bağlıdır. Əziz müəllimlə Mənsur Sultanovun bir-birlərinə rus dilində yazdıqları məktubların əsli məndədir.

Qeyd edək ki, Əziz Şərifin maraqlandığı bu dəftərin bu gün də harada saxlanıldığı maraq doğurur...

Əziz Şərif böyük yaradıcılıq yolu keçib. Tarixin ən ziddiyyətli dövrlərində fəaliyyət göstərib. Hətta 1917-ci ildə Naxçıvanda hümmətçilərlə birlikdə siyasi iş aparıb. 1925-1935-ci illərdə Zaqafqaziya MİK-də də işləyib. 1920-1930-cu illərdə Tbilisidə mətbuat və nəşriyyat sahələrində işləyib, sonralar oradakı Müəllimlər İnstitutunda dərs deyib. Qeyd edək ki,1930-cu ildə Əziz Şərif Tbilisidə xüsusi xidmət orqanları tərəfindən həbs edilib və bir müddət həbsdə olub.

Keçən yüzilliyin 30-cu illərinin sonunda taleyini Moskva şəhəri ilə bağlayan Əziz Şərif həmişə Naxçıvanla əlaqə saxlayıb.

Görkəmli alim Azərbaycan memuar-xatirə ədəbiyyatının banilərindən biridir. Sənədli ədəbiyyatın maraqlı bir növü olan sənədli xatirələrində müəllif şahidi və iştirakçısı olduğu hadisələri qələmə alıb. Onun yazdığı “Keçmiş günlərdən” adlı xatirə ədəbiyyatı nümunəsi (Bakı,1983) tarixi mənbə kimi çox qiymətlidir.

Əziz Şərif həm də istedadlı tədqiqatçı idi. Onun tapıntıları çoxdur. Bunlardan ən mühümü Əziz Şərif tərəfindən M.F.Axundzadə – Səbuhinin “Puşkinin ölümünə Şərq poeması” əsərinin ədibin öz əli ilə yazdığı orijinal nüsxəsinin tapılmasıdır.

Görkəmli alim 1915-1917-ci illərdə Moskva Kommersiya İnstitutunda oxuyub. Hətta onun iqtisadi sahədə işləməsi haqqında məlumatlar vardır. Əziz müəllimin diplomatik işdə (Moskvada) fəaliyyəti haqqında məlumatlar maraq doğurur. Yəqin ki, gələcək axtarışlar bu istiqamətdə öz sözünü deyəcək. O, Naxçıvanı çox sevirdi. Mən dəfələrlə bunun canlı şahidi olmuşam. Onun evində ordubadlı dostları kirayəçi kimi yaşayırmış. Əziz müəllim onlardan pul almırmış. Əziz Şərif hər il doğulduğu bu evə baş çəkirmiş. Hətta son gəlişini də kövrək bir kədərlə nəql edirdi. 1965-ci ildə ona xəbər göndərirlər ki, evləri söküləcək. Xatirələrdən məlumdur ki, küçə qapıları “Zaviyə” məhəlləsinə açılırmış. O, həmin evin küçə qapısının taqqılbabını aparıb Moskvadakı mənzilinin qapısına vurmuşdu.

Bu haqda alimin öz arzusu ilə yazıçı Hüseyn Abbaszadə “Taqqılbab” adlı maraqlı hekayə yazıb.

Görkəmli alim haqqında xatirələr çoxdur. Onları bir yazıya sığışdırmaq mümkün deyil. Ancaq bir məsələdən də yan keçmək olmur. O, ömrünün sonunadək Mirzə Cəlilə məxsus kresloda oturaraq ədəbi əsərlər, resenziyalar yazdı, tərcümələr etdi.

Həmin kreslonu Mirzə Cəlil Təbrizdə düzəltdirib və özü ilə birgə gəzdirib. Əziz Şərifin dediyinə görə, Həmidə xanım 1936-cı ildə onu Əziz Şərifə bağışlayıb.

Əziz Şərifin vəfatından sonra Bakıdan Moskvaya göndərilən nümayəndələr həmin kreslonu alıb Bakıya gətirmək istəyirmişlər. Lakin niyyəsə onun qızı Güllü ilə dil tapa bilməyiblər. Çox arzu edərdim ki, böyük ustad Mirzə Cəlilə məxsus bu tarixi kreslo Naxçıvana gətirilsin və Mirzə Cəlilin ata yurdundakı muzeydə öz layiqli yerini tutsun.

Hər dəfə onun doğulduğu evin yerinə çatanda böyük alimi, xeyirxah dostumu xatırlayıram. Bir dəfə o, məndən soruşdu ki, yazıçı S.S.Axundovun “Qaraca qız”ını oxumusan? Dedim ki, bir neçə dəfə. Bu qorxulu nağılın sonunu kədərlə xatırlatdı mənə. O vaxtlar mən fikirləşirdim ki, Əziz müəllim niyə birdənbirə həmin hekayənin sonunu xatırladı. Sonralar mən onu anladım – hələ ömrünün son vaxtlarında yazdığı və “Ədəbiyyat və incəsənət” qəzetində çap etdirdiyi “Ayılın!” adlı yazısını oxuyanda. Məqalə Dağlıq Qarabağ hadisələrinə həsr olunub. Məncə, bu, onun Azərbaycan mətbuatında son yazısı idi.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamını oxuyanda dedim ki, Əziz müəllim, siz unudulmamısınız. Nə yaxşı ki müstəqil Azərbaycan Respublikası və onun tərkib hissəsi Naxçıvan Muxtar Respublikası var. Və hakimiyyət çox iradəli, etibarlı, tariximizə çox sədaqətli əllərdədir. Mən bu sərəncamın bəxş etdiyi sevincdə bəzi qeydləri etməklə və hələlikdə böyük pedaqoqun özünün dediyi kimi “son nöqtəni qoyuram”.***

**Musa QULİYEV**
*tarix üzrə fəlsəfə doktoru*

## Üzgüçülük üzrə Naxçıvan şəhər birinciliyi

İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin Üzgüçülük Mərkəzində məktəblilərin yay tətilinin səmərəli təşkili məqsədilə yeniyetmə və gənclər arasında üzgüçülük üzrə Naxçıvan şəhər birinciliyi keçirilmişdir. İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin direktoru Ramin Talıbov tədbiri açıq elan etmiş və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir.

İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 5 yaş qrupunda 50 idmançı iştirak etmişdir. Yarışda 1998-1999-cu illər təvəllüdlü idmançılar arasında Şahin Qubadov, 2000-ci il təvəllüdlü idmançılar arasında İsmayıl Haqverdiyev, 2001-ci il təvəllüdlü idmançılar arasında Alı Əmrahov, 2002-ci il təvəllüdlü idmançılar arasında Həsən Abbasov, 2003-2005-ci illər təvəllüdlü idmançılar arasında isə Əsgər Məmmədov həmyaşıdları arasında birinci yerə layiq görülmüşlər.

Sonda hər yaş qrupunda I, II və III yerləri tutan idmançılara təşkilatçıların diplom və fəxri fərmanları təqdim olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası***
***Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## İdmançı psixologiyası

*İdman meydanlarını səhnələrə bənzədənlər az deyil. İdmançıları, adətən, səhnədə yaradıcı iş görən insanlar kimi də qiymətləndirirlər. Sənətkarlar və idmançılar: fərqli deyimlər olsa belə, bunları birləşdirən bir dəyər var – uğurlu sonluq. Lakin sənət adamlarından fərqli olaraq idmançılar yaradıcılıqlarında əks manevələrlə üzləşirlər. Yəni hər hansı idman növü ilə məşğul olan kəslər qarşı tərəfin böyük gücü qarşısında tab gətirmək və uğur qazanmaq üçün fiziki güclə yanaşı, psixoloji vəziyyətə də hazır olmalıdırlar.*

### *Dəyişilməz üçlü vəhdət*

Psixoloji hazırlıq, psixoloji tərəfdən məsələyə yanaşmaq və yaxud psixoloji durumun tənzimlənməsi – bu amillər idmanda əsas şərtlərdəndir. Düzdür, digər nüanslar da idmanda rol oynayır, lakin idmançının yüksək səviyyədə psixoloji hazırlığı onu qələbəyə aparır. İnsan psixologiyası hər şeyə qadirdir. Psixoloji durumu hər zaman sabit saxlamaq üçünsə insan ağlı mühüm rol oynayır. Yəni insan normal düşünmək, normal addım atmaq və hadisəni normal tərzdə analiz etmək üçün ağlından istifadə etməlidir. Hələ qədim dövrlərdən başlayaraq alimlər insanın ağlının, cisminin və ruhunun vəhdətinin vacibliyini qeyd etmişlər və bu üçlü vəhdətin qeyri-adi imkanlara malik olmasını sübut etmişlər.

Düşünə bilən hər bir sağlam uşaqdan idmançı yetişdirmək mümkündür – bu, dəyişilməz devizdir. Müasir dövrdə idmanda öyrənilməsi və artırılması zəruri olan hər bir bacarığın üzərində daim işlənilir və təkmilləşdirilir. İdmançının yaxşı psixoloji hazırlığa malik olması onun fiziki, texniki və taktiki hazırlığını daha da gücləndirir. Ruhi, fiziki və əqli vəhdəti yaratmaq bacarığının insana nə qədər qeyri-adi imkanlar verdiyi aparılan araşdırmalarda da məlum olmuşdur.

Bəs idmançı psixoloji duruma necə hazırlaşmalıdır? Aparılan araşdırmalardan sonra belə qənaətə gəlinib ki, idmançının hər gün məşqdə psixoloji hazırlığa diqqət yetirməsi onun psixologiyasının hər gün möhkəmləndirilməsidir. Yəni buna hazır olan idmançılar yarış, turnir vaxtı böyük həyəcan, stress keçirmirlər. Səbəbi isə çox sadədir: onlar gündəlik məşqlərində keçdikləri hazırlığın mübarizə günü üçün nəzərdə tutulduğunu tam anlayırlar və həmin günü çətin, qorxulu gün kimi beyinlərində formalaşdırmırlar.

### *İdmançıda emosional oyanış*

Dünya idmanında belə bir termin qəbul olunub – emosional oyanış. Bu isə insan xarakterinə görə müsbət və mənfi olur. Müsbət emosiya insana bütün işlərində kömək edir, mənfi emosiya isə öz xarakterinə görə hər bir işdə insana mane olur. Ən çox mane olan mənfi emosiya qorxudur. Bu, adətən, yüngül həyəcanla başlayır və nəticədə, qorxu idmançının çıxışına mane olur. Müasir idmanda emosional oyanışı şüurlu surətdə özləri yüksəldən və onu özlərinə lazım olan səviyyədə saxlaya bilən idmançıların sayı çox azdır.

Bəs emosional oyanış səviyyəsini necə ölçmək olur? Bunu sadə şəkildə nəbzi saymaqla təyin etmək olar. Hətta tibbin inkişaf etmədiyi qədim dövrlərdə həkimlər nəbzlə insanın nə istədiyini belə müəyyənləşdirə biliblər. İdman növündən asılı olaraq emosional oyanış səviyyəsi də fərqli olur. Maraqlısı odur ki, bu termində diqqət amili də mühüm rol oynayır. Hətta diqqətin özü də emosional oyanışdan çox asılıdır. Edilən idmanda fiziki gücü də nəzərə alsaq, o zaman emosional oyanış səviyyəsini bilmək çox asandır. İdmançıda emosional oyanışı, nəbzi yuxu arteriyasında, gicgah nahiyəsində, əli ürəyin üstünə qoymaqla təyin etmək mümkündür. Nəbzin sayı 1 dəqiqədə ürəyin döyüntüsünü saymaqla təyin edilir. Ancaq bu, çox vaxt tələb etdiyi üçün nəbz, əsasən, aşağıdakı vasitələrlə dəqiqləşdirilir. İdmanda nəbzi 3 vaxt ölçüsü ilə təyin edirlər: 6 saniyə ərzində döyünən nəbzi 10-a, 10 saniyədə döyünən nəbzi 6-ya, 15 saniyədə döyünən nəbzi 4-ə vurmaqla 1 dəqiqədə döyünən nəbzin sayını təyin etmək mümkündür. Göstərilən vaxtların ən dəqiqi 15 saniyə ərzində ölçülən nəbz sayılır. Ürək döyüntüsünü saymaqla emosional oyanışın səviyyəsini təyin etmək asan və rahat bir üsuldur.

Deməli, müasir idmançılar yarışa nəinki texniki, taktiki və fiziki cəhətdən hazırlaşmağı bacarmalıdırlar, onlar həm də özlərini psixoloji baxımdan mübarizəyə hazırlamağa qadir olmalıdırlar.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 512